XALQ QƏZETİ 23 noyabr 2018-ci il, cümə

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 491** **Bakı şəhəri, 19 noyabr 2018-ci il**

**Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi və Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxslərin nizamnamələrinin və strukturlarının təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanının 11.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi publik hüquqi şəxsin strukturu" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxsin strukturu" təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** "Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxsin xüsusi təyinatlı "CASPIAN STAR" gəmisinin və "VEGA" sürətli katerinin heyət üzvlərinin aylıq vəzifə maaşları" təsdiq edilsin (5 nömrəli əlavə).

**6.** "Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 57 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 437) ləğv edilsin.

**7.** "Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 164 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 588; 2015, № 6, maddə 785) ləğv edilsin.

**8.** "Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyindəki Nəqliyyat və Texniki-Təminat İdarəsinin fəaliyyətinin təşkilinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 sentyabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1135) ləğv edilsin.

**9.** Bu Qərarın 1-5-ci hissələri ilə təsdiq edilmiş normativ hüquqi aktlarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***